AZƏRBAYCAN RESPUBLİKASININ

NAZİRLƏR KABİNETİ

Q Ə R A R

№ 378

Bakı şəhəri, 30 avqust 2019-cu il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Aqrar-Elm Mərkəzinin və onun tabeliyindəki elmi-tədqiqat institutlarının strukturunun təkmilləşdirilməsi haqqında" 2015-ci il 17 aprel tarixli 109 nömrəli və "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 19 dekabr tarixli 549 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 iyun tarixli 748 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Aqrar-Elm Mərkəzinin və onun tabeliyindəki elmi-tədqiqat institutlarının strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 aprel tarixli 109 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 476; 2018, № 8, maddə 1805) 6-cı hissəsində "Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu" sözləri "Nazirliyinin tabeliyində Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745; 2019, № 3, maddə 524) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.8-ci bənd ləğv edilsin;

2.2. 3.1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.2-ci bənd əlavə edilsin:

“3.2. “Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxs.”.

Azərbaycan Respublikasının
Baş Naziri **Novruz Məmmədov**